**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 006/257**

**Bakı şəhəri** **"06" fevral 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Portuqaliya Respublikasının bəzi inzibati ərazi vahidlərində qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyinin başa çatması və bu xəstəliyə görə epizootik sağlamlıq statusun bərpa olunması barədə həmin ölkənin müvafiq qurumunun təqdim etdiyi hesabat Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (ÜHST) tərəfindən qəbul edilmişdir.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən ölkə üzrə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Müvafiq hesabatın ÜHST tərəfindən qəbul olunması nəzərə alınaraq, YPQQ xəstəliyinə görə Portuqaliya Respublikasının bəzi inzibati ərazi vahidlərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2022-ci il 5 yanvar tarixli 001/176 nömrəli qərarla Portuqaliya Respublikasının Santaren (Santarem) dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 11 fevral tarixli 011/186 nömrəli qərarla Portuqaliya Respublikasının Lissabon (Lisboa) dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2022-ci il 22 sentyabr tarixli 050/225 nömrəli qərarla Portuqaliya Respublikasının Evora (Evora) dairəsinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**